# VAHİD ƏZİZİN HİKMƏTLİ FİKİRLƏRİ

### Sevgi haqqında

- Sevgi heç vaxt qapı döyməz - ürəyə girər.
- Sevgi təkcə gözəlliyə yox, insana dəyər verən xasiyyətə vurular.
- Sevgi yaşatdıqca böyüyür, gizlətdikcə yox olur.
- Səni sevən adam heç vaxt səni itirməz - qoymaz.
- Bəzən bir baxış bir ömürdən böyük olur.
- Ürək sözlə deyil, sükutla tanıyır sevgini.

### Həyat və insan haqqında

- Hər kəs öz içində daşıdığı qədər böyükdür.
- İtirdiklərimiz bizi dəyişdirir, qazandıqlarımız isə tamamlayır.
- Hər insan bir dünyadır, amma hamı öz dünyasına yol vermir.
- Ömür tələsənlər üçün qısa, dəyər bilənlər üçün uzundur.
- İnsanın böyüklüyü boyunda yox, davranışında görünür.
- Sükut da bir cavabdır, amma onu yalnız anlayan oxuyur.
- Ümid insanın ən böyük qüvvəsidir.
- Doğru sözün tikanı çox olar, amma yarası sağaldar.

### Dostluq və insan münasibətləri

- Dost - dayananda yanında, danışanda ürəyində olandır.
- Hər gülən dost deyil, hər susan düşmən deyil.
- Dostluq illərlə yox, dəyərlə ölçülür.
- İnsanı ən çox sevən də, ən çox incidən də yaxınları olur.

### Vətən və milli ruh haqqında

- Vətən insanın həm doğulduğu yer, həm də döyüldüyü yerdir.
- Torpaq sevgisi anadan gələn bir nəfəsdir – ömür boyu sönmür.
- Qalib xalqın sözü də ucalır, sözü ucalan xalq da qalibdir.
- Vətən yarası sağalmaz, amma qələbə o yaraya məlhəmdir.

### Taleyə, həyata və dərdlərə dair

- Hər dərd bir müəllimdir – öyrədər, amma bahasına.
- Ən çətin yol insanın özünə gedən yoldur.
- Taleyin pəncərəsi hər kəsə başqa açıdan açılır.

- Hər gecənin bir səhəri, hər dərdin bir işığı var.
- Gecikən xoşbəxtlik gələndə daha qiymətli olur.

***Müdriklik və düşüncə***

- Hər söz şeir olmur, amma hər şeir bir həqiqətdən doğulur.
- Böyümək yaşı artırmaq deyil, yola davam etməkdir.
- Hər kəs öz yükünü özü daşıyır – görünən-görünməyən.
- Ağlın bədii dili – şeirdir.
- Dilim susanda, sözüm ürəyimdə böyüyür.